AZƏRBAYCAN RESPUBLİKASI
NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

SOSİAL - İQTİSADİ İNKİŞAF

3

YANVAR-MART

MÜNDƏRİCAT

I	**MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR**	5
	2025-ci ilin yanvar-mart aylarında muxtar respublikanın iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri	5
II	**REAL SEKTOR**	
	Ümumi daxili məhsul	11
	Sənaye	12
	Tikinti	33
	Kənd təsərrüfatı	44
	Nəqliyyat	48
	İnformasiya və rabitə	49
	İstehlak bazarı	49
	Əmtəə bazarı	50
	İctimai iaşə xidmətləri	55
	Əhaliyə göstərilən ödənişli xidmətlər	56
	İstehlak qiymətləri indeksi	58
	Kredit qoyuluşları və pul kütləsinin dövriyyəsi	61
	Məşğulluq və işsizlik	62
	Yeni iş yerləri	64
III	**XARİCİ SEKTOR**	
	Xarici ticarət	67
IV	**SOSİAL SEKTOR**	
	Əməkhaqqı	71
	Əhalinin əmanətləri və manatın məzənnəsi	72
	Hüquqpozmalar	74
	Demoqrafik vəziyyət	75
	NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ŞƏHƏR VƏ RAYONLARININ İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ GÖSTƏRİCİLƏRİ	77
	Naxçıvan şəhərinin iqtisadi və sosial inkişafının göstəriciləri	78
	Şərur rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri	83
	Babək rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri	87
	Ordubad rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri	91
	Culfa rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri	95
	Kəngərli rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri	99
	Şahbuz rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri	103
	Sədərək rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri	107
	Əlavələr	112
	Qrafiklər	120
	Metodoloji izahatlar	126

Naxçıvan Muxtar Respublikası
Dövlət Statistika Komitəsi
Məruzə № 3
22 aprel 2025-ci il

2025-ci ilin yanvar-mart aylarında muxtar respublikanın iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

Ümumi daxili məhsul. 2025-ci ilin yanvar-mart aylarında Naxçıvan Muxtar Respublikasında 344 milyon 310 min 200 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artmışdır.

Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun həcmi 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 0,6 faiz artaraq 730,7 manat olmuşdur.

Sənaye. 2025-ci ilin yanvar-mart aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fərdi sahibkar kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 114 milyon 128 min 600 manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 9,2 faiz azdır. Ümumi istehsalın 78,1 faizi sənaye məhsullarının istehsalı, 21,9 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Sənayedə dövlət sektorunun payı 28 milyon 937 min 800 manat və ya 25,4 faiz, qeyri-dövlət sektorunun payı 85 milyon 190 min 800 manat və ya 74,6 faiz olmuşdur.

Sənaye məhsulunun 0,2 faizi mədənçıxarma sektorunda, 74,6 faizi emal sektorunda, 23,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 2,2 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sənayesində istehsalın həcmi 46,5 faiz artmışdır.

Emal sənayesində tikinti materiallarının istehsalı 2,1 dəfə, metallurgiya sənayesi 22,6 faiz, kimya sənayesi məhsullarının istehsalı 21,1 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 0,6 faiz artmış, poliqrafiya məhsullarının istehsalı 8,2 faiz, tütün məmulatlarının istehsalı 16,9 faiz, geyim istehsalı 21,8 faiz, qida məhsullarının istehsalı 27,0 faiz, mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı 30,8 faiz, içki istehsalı 34,0 faiz, hazır metal məmulatlarının istehsalı 35,8 faiz, kağız və karton istehsalı 47,0 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 77,8 faiz, mebellərin istehsalı 93,7 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 19,1 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 4,7 dəfə artmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 1 aprel 2025-ci il vəziyyətinə 9 milyon 687 min 800 manatlıq hazır məhsul olmuşdur.

Tikinti. 2025-ci ilin yanvar-mart aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 43 milyon 60 min 900 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 42,3 faiz çoxdur.

Əsas kapitala vəsait qoyuluşunun 12 milyon 650 min 600 manatı və ya 29,4 faizi dövlət sektorunun, 30 milyon 410 min 300 manatı və ya 70,6 faizi isə qeyri-dövlət sektorunun payına düşür.

İstifadə olunmuş vəsaitin 2 milyon 742 min 200 manatı və ya 6,4 faizi məhsul istehsalı sahələrinə, 14 milyon 3 min 400 manatı və ya 32,5 faizi xidmət sahələrinə, 26 milyon 315 min 300 manatı və ya 61,1 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 29 milyon 843 min 400 manatı və ya 69,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 17,2 faiz çoxdur.

Kənd təsərrüfatı. 2025-ci ilin yanvar-mart aylarında diri çəkidə 6906,4 ton ət, 13411,0 ton süd, 25645 min ədəd yumurta istehsal olunmuşdur. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,0 faiz, süd istehsalı 2,8 faiz artmış, yumurta istehsalı isə 7,0 faiz azalmışdır.

2024-cü ilin yanvar-mart ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 0,7 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 0,5 faiz, bitkiçilik məhsulları istehsalı isə 3,6 faiz artmışdır.

Nəqliyyat. 2025-ci ilin yanvar-mart aylarında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 1650,0 min ton yük və 11192,2 min sərnişin daşınmışdır. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,1 faiz, sərnişin daşınması 1,0 faiz artmışdır. Yüklərin 99,9 faizi avtomobil və 0,1 faizi isə hava nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin 98,7 faizi avtomobil, 1,3 faizi isə hava nəqliyyatı ilə daşınmışdır.

İnformasiya və rabitə. 2025-ci ilin yanvar-mart aylarında muxtar respublikada informasiya və rabitə xidmətlərinin dəyəri 9 milyon 173 min 600 manat olmuşdur ki, bu da 2024-cü ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 11,9 faiz çoxdur. Bu sahədə əldə edilmiş gəlirin 69,9 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Pərakəndə ticarət dövriyyəsi və ödənişli xidmətlər. 2025-ci ilin yanvar-mart aylarında pərakəndə ticarət şəbəkəsində əhaliyə 335 milyon 131 min 800 manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 52 milyon 882 min 600 manatlıq ödənişli xidmətlər göstərilmişdir. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə ticarət dövriyyəsi 2,7 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərdən əldə olunan gəlir 9,6 faiz artmışdır. Ticarət şəbəkəsində 172 milyon 592 min 900 manatlıq qida məhsulları,

içkilər və tütün məmulatları, 162 milyon 538 min 900 manatlıq qeyri-qida məhsulları satılmışdır.

Kredit resurslarından istifadə. 2025-ci ilin yanvar-fevral aylarında muxtar respublikada fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 71 milyon 476 min 400 manat məbləğində kredit verilmişdir. Verilmiş kreditlərin 6 milyon 537 min manatı və yaxud 9,1 faizi qısamüddətli, 64 milyon 939 min 400 manatı və yaxud 90,9 faizi uzunmüddətli kreditlər olmuşdur.

Xarici ticarət. 2025-ci ilin yanvar-mart aylarında muxtar respublikanın xarici ticarət dövriyyəsi 27 milyon 457 min 60 ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 2 milyon 611 min 380 dollarını və ya 9,5 faizini ixrac olunmuş məhsulların, 24 milyon 845 min 680 dollarını və ya 90,5 faizini isə idxal məhsullarının dəyəri təşkil etmişdir.

İstehlak qiymətləri indeksi. 2025-ci ilin yanvar-mart aylarında istehlak qiymətləri indeksi 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 107,1 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 107,4 faiz, qeyri-qida məhsulları üzrə 106,9 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 106,7 faiz təşkil etmişdir.

Əməkhaqqı. 2025-ci ilin yanvar-fevral aylarında muxtar respublika iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz artaraq 774,5 manat təşkil etmişdir.

Əhalinin əmanətləri və manatın məzənnəsi. 1 mart 2025-ci il tarixə muxtar respublika üzrə əhalinin banklardakı əmanətlərinin məbləği 27 milyon 961 min 300 manat olmuşdur ki, bu da 1 mart 2024-cü il tarixə olan müvafiq göstəricidən 53,6 faiz çoxdur.

2025-ci ilin yanvar-mart aylarında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 manata, 1 Avroya - 1,79 manata, 100 Türk lirəsinə - 4,71 manata, 100 Rusiya rubluna - 1,83 manata bərabər olmuşdur.

Demoqrafik vəziyyət. Muxtar respublika əhalisinin sayı ilin əvvəlindən 226 nəfər və ya 0,05 faiz artaraq 2025-ci il mart ayının 1-i vəziyyətinə 471169 nəfər təşkil etmişdir.

Makroiqtisadi göstəricilər

Göstəricinin adı	2025-ci ilin yanvar-mart ayları, faktiki	2025-ci ilin yanvar-mart ayları 2024-cü ilin yanvar-mart aylarına nisbətən, faizlə	Məlumat üçün 2024-cü ilin yanvar-mart ayları 2023-cü ilin yanvar-mart aylarına nisbətən, faizlə
Ümumi daxili məhsul, min manat	344 310,2	101,2	102,9
Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul, manat	730,7	100,6	102,2
Sənaye məhsulu, min manat	114 128,6	90,8	120,1
Əsas kapitala yönəldilmiş vəsaitlər, min manat	43 060,9	142,3	68,2
ondan tikinti-quraşdırma işləri	29 843,4	117,2	75,3
Kənd təsərrüfatı məhsulu, min manat	41 301,7	100,7	99,2
o cümlədən: bitkiçilik	3 376,1	103,6	101,0
heyvandarlıq	37 925,6	100,5	99,0
Nəqliyyat sektorunda yük daşınması, min ton	1 650,0	101,1	101,1
Nəqliyyat sektorunda sərnişin daşınması, min sərnişin	11 192,2	101,0	100,9
İnformasiya və rabitə xidmətləri, min manat	9 173,6	111,9	100,4
Pərakəndə ticarət dövriyyəsi, min manat	335 131,8	102,7	100,9
Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat	52 882,6	109,6	100,6
Xarici ticarət dövriyyəsi, min ABŞ $	27 457,06	110,2	73,3
o cümlədən ixrac	2 611,38	101,5	141,5
idxal	24 845,68	111,2	69,3

Göstəricinin adı	2025-ci ilin yanvar-mart ayları, faktiki	2025-ci ilin yanvar-mart ayları 2024-cü ilin yanvar-mart aylarına nisbətən, faizlə	Məlumat üçün 2024-cü ilin yanvar-mart ayları 2023-cü ilin yanvar-mart aylarına nisbətən, faizlə
Naxçıvan Muxtar Respublika büdcəsinin gəlirləri, min manat	111 062,1	2,1 d.	132,5
Naxçıvan Muxtar Respublika büdcəsinin xərcləri, min manat	93 720,4	101,3	85,4
Əhalinin banklardakı əmanətləri, 2025-ci il 01 mart vəziyyətinə, min manat	27 961,3	153,6	125,1
Kredit qoyuluşları, min manat	71 476,4*	137,9**	117,8***
Orta aylıq nominal əməkhaqqı, manat	774,5*	104,3**	118,1***

*) 2025-ci ilin yanvar-fevral ayları göstəricisi
**) 2025-ci ilin yanvar-fevral ayları 2024-cü ilin yanvar-fevral aylarına nisbətən
***) 2024-cü ilin yanvar-fevral ayları 2023-cü ilin yanvar-fevral aylarına nisbətən

Ümumi daxili məhsul

Muxtar respublikada 2025-ci ilin yanvar-mart aylarında ümumi daxili məhsul istehsalı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artaraq 344310,2 min manat olmuşdur.

Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun həcmi 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 0,6 faiz artaraq 730,7 manat olmuşdur.

2025-ci ilin yanvar-mart aylarında ümumi daxili məhsulun 21,2 faizi və ya 72967,7 min manatı malların istehsalından, 69,4 faizi və ya 238934,8 min manatı xidmətlərdən yaranmış əlavə dəyərdən, 9,4 faizi və ya 32407,7 min manatı isə məhsula və idxala xalis vergilərdən yaranmışdır.

min manat

Göstərici	2025-ci ilin yanvar-mart ayları, faktiki	ümumi yekunda xüsusi çəkisi, faizlə
Ümumi daxili məhsul	**344 310,2**	**100,0**
o cümlədən		
məhsul istehsalı	72 967,7	21,2
xidmətlərin istehsalı	238 934,8	69,4
məhsula və idxala xalis vergilər	32 407,7	9,4

2025-ci ilin yanvar-mart aylarında ümumi daxili məhsulun strukturu



Sənaye

2025-ci ilin yanvar-mart aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fərdi sahibkar kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 114128,6 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 9,2 faiz azdır. Ümumi istehsalın 78,1 faizi sənaye məhsullarının istehsalı, 21,9 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Sənayedə dövlət sektorunun payı 28937,8 min manat və ya 25,4 faiz, qeyri-dövlət sektorunun payı 85190,8 min manat və ya 74,6 faiz olmuşdur.

Sənaye məhsulunun 0,2 faizi mədənçıxarma, 74,6 faizi emal, 23,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 2,2 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənaye məhsulu istehsalının sahə strukturu



B – Mədənçıxarma sənayesi
C – Emal sənayesi
D – Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı
E – Su təchizatı, tullantıların təmizlənməsi və emalı

Sənaye istehsalı indeksləri, faizlə

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən
2024-cü il	
Yanvar	120,6
Yanvar-fevral	127,0
Yanvar-mart	120,1
Yanvar-aprel	110,9
Yanvar-may	107,2
Yanvar-iyun	103,9
Yanvar-iyul	102,3
Yanvar-avqust	101,9
Yanvar-sentyabr	99,7
Yanvar-oktyabr	99,9
Yanvar-noyabr	98,7
Yanvar-dekabr	91,8
2025-ci il	
Yanvar	104,5
Yanvar-fevral	79,3
Yanvar-mart	90,8

Qeyd: Metodologiyaya əsasən sənaye istehsalı indeksi hüquqi şəxslər tərəfindən natura ifadəsində istehsal edilmiş məhsulun müqayisə edilən dövrün məhsuluna olan nisbətidir.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 1 aprel 2025-ci il vəziyyətinə 9687,8 min manatlıq hazır məhsul olmuşdur.

Ehtiyatların 7476,2 min manatı və ya 77,1 faizi Naxçıvan şəhərinin, 1205,3 min manatı və ya 12,4 faizi Babək, 892,4 min manatı və ya 9,2 faizi Kəngərli, 105,6 min manatı və ya 1,1 faizi Şahbuz, 6,8 min manatı və ya 0,1 faizi Şərur, 1,5 min manatı və ya 0,1 faizi Sədərək rayonlarının sənaye müəssisələrinin anbarlarında qalmışdır.

Mədənçıxarma sənayesi

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 186,2 min manat olmuşdur ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 46,5 faiz çoxdur.

Mədənçıxarma sənayesində istehsalın dinamikası

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
2024-cü il	
Yanvar	-
Yanvar-fevral	3,2 dəfə
Yanvar-mart	158,6
Yanvar-aprel	101,4
Yanvar-may	39,2
Yanvar-iyun	40,3
Yanvar-iyul	44,4
Yanvar-avqust	44,7
Yanvar-sentyabr	43,5
Yanvar-oktyabr	40,8
Yanvar-noyabr	39,9
Yanvar-dekabr	37,5

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
2025-ci il	
Yanvar	-
Yanvar-fevral	134,6
Yanvar-mart	146,5

Mədənçıxarma sənayesi üzrə istehsalın həcmi

Fəaliyyət növünün adı	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir, min manat	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
Mədənçıxarma sənayesi	**186,2**	**146,5**
Mədənçıxarma sənayesinin digər sahələri	186,2	146,5

Mədənçıxarma sənayesində məhsul istehsalı

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	01.04.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Çınqıl, qırmadaş, xırda çay daşı və çaxmaq daşı, ton	2 385,7	37,8	-
Tikinti qumu, ton	15 743,4	6,7 dəfə	-
Daşduz, ton	770,0	89,9	90,4

Emal sənayesi*

Emal sənayesində 2025-ci ilin yanvar-mart aylarında 85207,1 min manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir ki, bu da bir il öncəki göstəricidən 22,7 faiz azdır.

Emal sənayesində istehsalın dinamikası

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
2024-cü il	
Yanvar	123,2
Yanvar-fevral	130,3
Yanvar-mart	122,9
Yanvar-aprel	112,5
Yanvar-may	109,5
Yanvar-iyun	106,4
Yanvar-iyul	104,4
Yanvar-avqust	103,5
Yanvar-sentyabr	100,9
Yanvar-oktyabr	100,8
Yanvar-noyabr	98,6
Yanvar-dekabr	90,9
2025-ci il	
Yanvar	99,1
Yanvar-fevral	66,9
Yanvar-mart	77,3

Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı

Fəaliyyət növlərinin adı	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir, min manat	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
Emal sənayesi – cəmi	**85 207,1**	**77,3**
o cümlədən		
qida məhsullarının istehsalı	45 222,7	73,0
içki istehsalı	16 112,9	66,0
tütün məmulatlarının istehsalı	5 970,9	83,1
toxuculuq sənayesi	118,0	-
geyim istehsalı	912,1	78,2
mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı	1 270,2	69,2

Fəaliyyət növlərinin adı	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir, min manat	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
kağız və karton istehsalı	368,1	53,0
poliqrafiya məhsullarının istehsalı	161,5	91,8
kimya sənayesi	168,5	121,1
rezin və plastik kütlə məmulatlarının istehsalı	3 184,2	100,6
tikinti materiallarının istehsalı	4 826,8	2,1 dəfə
metallurgiya sənayesi	100,5	122,6
hazır metal məmulatlarının istehsalı	2 658,7	64,2
avtomobil, qoşqu və yarımqoşquların istehsalı	263,2	22,2
mebellərin istehsalı	2 572,2	6,3
sair sənaye məhsullarının istehsalı	18,6	-
maşın və avadanlıqların quraşdırılması və təmiri	1 278,0	-

Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində 67306,5 min manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə tütün məmulatlarının istehsalında 16,9 faiz, qida məhsullarının istehsalında 27,0 faiz, içki istehsalında isə 34,0 faiz azalma müşahidə olunmuşdur.

Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə		
	Qida məhsullarının istehsalı	İçki istehsalı	Tütün məmulatlarının istehsalı
2024-cü il			
Yanvar	87,7	2,6 dəfə	-

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə		
	Qida məhsullarının istehsalı	İçki istehsalı	Tütün məmulatlarının istehsalı
Yanvar-fevral	101,5	169,7	134,9
Yanvar-mart	107,3	167,0	141,2
Yanvar-aprel	111,7	82,2	151,5
Yanvar-may	116,0	68,3	137,9
Yanvar-iyun	104,4	62,8	106,3
Yanvar-iyul	97,6	66,2	92,9
Yanvar-avqust	94,7	77,6	79,5
Yanvar-sentyabr	97,8	75,3	70,0
Yanvar-oktyabr	100,2	73,7	77,4
Yanvar-noyabr	99,2	72,2	79,7
Yanvar-dekabr	95,4	69,8	74,7
2025-ci il			
Yanvar	161,1	80,5	60,8
Yanvar-fevral	68,5	68,7	60,9
Yanvar-mart	73,0	66,0	83,1

Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	01.04.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Qida məhsulları			
Kolbasa məmulatları, ton	62,9	77,5	-
Meyvə şirələri, min dkl	25,4	151,2	9,7
Qaymaq, xama, ton	117,4	100,2	-
Pendir və kəsmik, ton	637,9	98,5	-
Ayran, ton	15,9	39,9	-
Unlu qənnadı məmulatları, ton	1 257,8	151,0	39,2
Makaron məmulatları, ton	3,0	2,6 dəfə	-

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	01.04.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Şəkərli qənnadı məmulatları, ton	1,3	28,7	-
Şəkər, qənd, ton	176,4	92,2	169,1
Qida duzu, ton	348,8	67,1	227,9
Maya, ton	11,5	115,0	-
İçki məhsulları			
Alkoqolsuz içkilər, min dkl	111,7	95,2	84,4
Araq, min dkl	2,9	116,0	0,2
Şirinləşdirilməmiş sular, min dkl	2 345,9	57,3	441,4
Pivə, min dkl	18,7	122,2	0,7
Tütün məmulatları			
Siqaret və siqarlar, min ədəd	453 776,2	83,1	268 707,2

Toxuculuq sənayesi və geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində 1030,1 min manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə geyim istehsalında 21,8 faiz azalma müşahidə olunmuşdur.

Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində istehsalın dinamikası

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə		
	Toxuculuq sənayesi	Geyim istehsalı	Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı
2024-cü il			
Yanvar	6,3	27,7	-
Yanvar-fevral	4,3	5,6	-

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə		
	Toxuculuq sənayesi	Geyim istehsalı	Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı
Yanvar-mart	3,2	2,2	-
Yanvar-aprel	2,5	1,8	-
Yanvar-may	2,3	113,4	-
Yanvar-iyun	2,2	104,3	-
Yanvar-iyul	1,9	140,5	-
Yanvar-avqust	1,7	110,7	-
Yanvar-sentyabr	1,7	104,4	-
Yanvar-oktyabr	1,7	77,7	-
Yanvar-noyabr	1,7	75,8	-
Yanvar-dekabr	1,6	75,3	-
2025-ci il			
Yanvar	-	-	-
Yanvar-fevral	-	-	-
Yanvar-mart	-	78,2	-

Geyim istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	01.04.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Geyim istehsalı			
Üst geyim, ədəd**	163	45,5	-
İstehsalat və peşə komplektləri, ədəd**	10	-	-

Mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı sahəsində 1270,2 min manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 30,8 faiz azalma müşahidə olunmuşdur.

Mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı sahəsində istehsalın dinamikası

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
	Mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı
2024-cü il	
Yanvar	2,7 dəfə
Yanvar-fevral	2,7 dəfə
Yanvar-mart	2,5 dəfə
Yanvar-aprel	2,4 dəfə
Yanvar-may	2,2 dəfə
Yanvar-iyun	2,1 dəfə
Yanvar-iyul	192,2
Yanvar-avqust	183,6
Yanvar-sentyabr	169,8
Yanvar-oktyabr	169,0
Yanvar-noyabr	161,1
Yanvar-dekabr	148,0
2025-ci il	
Yanvar	65,9
Yanvar-fevral	71,8
Yanvar-mart	69,2

Mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	01.04.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Ağacdan vafli plitələri və analoji plitələr (ağacyonqar plitələr və ağacdan hazırlanan istiqamətləndiril-miş yonqarlı plitələr (OSB) istisna olmaqla), kubmetr	2 073,6	69,1	-

Kağız və karton, poliqrafiya məhsullarının istehsalı sahələrində 529,6 min manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə poliqrafiya məhsullarının istehsalında 8,2 faiz, kağız və karton istehsalında isə 47,0 faiz azalma müşahidə olunmuşdur.

Kağız və karton, poliqrafiya məhsullarının istehsalı sahələrində istehsalın dinamikası

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	
	Kağız və karton istehsalı	Poliqrafiya məhsullarının istehsalı
2024-cü il		
Yanvar	102,6	10,9
Yanvar-fevral	102,3	38,5
Yanvar-mart	4,3 dəfə	40,5
Yanvar-aprel	4,8 dəfə	45,1
Yanvar-may	5,4 dəfə	41,0
Yanvar-iyun	2,5 dəfə	45,8
Yanvar-iyul	2,8 dəfə	71,2
Yanvar-avqust	3,3 dəfə	71,1
Yanvar-sentyabr	190,6	82,6
Yanvar-oktyabr	134,0	89,9
Yanvar-noyabr	144,9	89,9
Yanvar-dekabr	142,0	94,7
2025-ci il		
Yanvar	18,4	178,5
Yanvar-fevral	37,8	100,0
Yanvar-mart	53,0	91,8

Kağız və karton, poliqrafiya məhsullarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	01.04.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Kağız və karton istehsalı			
Büzmələnmiş kağız karton taralar, ton	149,2	116,3	-
Kağız kütlədən, kağızdan, sellüloz pambıqdan və ya sellüloz lifdən süfrələr və salfetlər, kiloqram	23 812,3	26,1	-
Pambıqdan gigiyenik dəsmallar və tamponlar, uşaq bələkləri, əskiləri və analoji məmulatlar, kiloqram	10 134,2	-	79,2
Poliqrafiya məhsullarının istehsalı			
Digər qruplara daxil edilməyən sair çap işləri, min manat	65,8	91,9	-

Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində 3352,7 min manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kimya sənayesi məhsullarının istehsalında 21,1 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalında isə 0,6 faiz artım müşahidə olunmuşdur.

Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə		
	Kimya sənayesi	Əczaçılıq məhsullarının istehsalı	Rezin və plastik kütlə məmulatlarının istehsalı
2024-cü il			
Yanvar	146,9	-	96,1
Yanvar-fevral	2,1 dəfə	-	2,5 dəfə
Yanvar-mart	2,4 dəfə	-	2,9 dəfə
Yanvar-aprel	198,1	-	2,4 dəfə
Yanvar-may	167,7	-	178,8
Yanvar-iyun	142,5	-	160,8
Yanvar-iyul	126,3	-	159,3
Yanvar-avqust	114,1	-	154,2
Yanvar-sentyabr	110,1	-	143,8
Yanvar-oktyabr	112,7	-	148,8
Yanvar-noyabr	107,6	-	150,0
Yanvar-dekabr	93,6	-	135,5
2025-ci il			
Yanvar	71,8	-	2,0 dəfə
Yanvar-fevral	40,8	-	92,0
Yanvar-mart	121,1	-	100,6

Kimya sənayesi, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	01.04.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Kimya sənayesi məhsulları			
Qazşəkilli və ya maye karbon dioksidi (karbonat və ya dəm qazı), ton	213,3	48,7	-
Oksigen, kubmetr	10 215	110,4	-
Azot, kubmetr	246,0	2,1 dəfə	-
Lak-boya məmulatları, ton	10,4	63,0	4,0
Sair boya və laklar, ton	41,5	80,3	14,1
Yapışqan və yapışdırıcı maddələr, ton	26,0	90,6	12,1
Rezin və plastik kütlə məmulatlarının istehsalı			
Sərt plastmasdan borular, borucuqlar, qolçaqlar və şlanqlar, ton	28,8	11,5	-
Armaturlaşdırılmamış plastinlər, lövhələr, plyonkalar, zərvərəqlər və zolaqlar, ton	1,3	2,0	-
Polietilendən kisə və çantalar, ton	33,3	47,1	-
Plastmas tıxaclar, qapaqlar, qalpaqlar və tıxma üçün digər vasitələr, ton	35,7	149,4	-
Plastmas butulkalar, flakonlar və oxşar məmulatlar, min ədəd	29 403,2	151,6	-

Tikinti materiallarının istehsalı sahəsində 2025-ci ilin yanvar-mart aylarında istehsalın ümumi dəyəri 4826,8 min manat olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,1 dəfə artmışdır.

Tikinti materiallarının istehsalı sahəsində istehsalın dinamikası

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
	Tikinti materiallarının istehsalı
2024-cü il	
Yanvar	131,9
Yanvar-fevral	89,1
Yanvar-mart	90,3
Yanvar-aprel	81,2
Yanvar-may	143,8
Yanvar-iyun	123,9
Yanvar-iyul	120,3
Yanvar-avqust	126,8
Yanvar-sentyabr	119,6
Yanvar-oktyabr	112,2
Yanvar-noyabr	105,5
Yanvar-dekabr	95,0
2025-ci il	
Yanvar	145,9
Yanvar-fevral	153,5
Yanvar-mart	2,1 dəfə

Tikinti materiallarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	01.04.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Tikinti kərpicləri, kubmetr	6 803,1	3,6 dəfə	39,1
Sement, min ton	16,1	67,1	9,4
Əhəng, ton	249,4	3,3 dəfə	152,9
Sementdən, betondan kərpiclər və oxşar məmulatlar, ton	2 773,9	68,1	373,7

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	01.04.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Tikintidə istifadə etmək üçün gipsdən tavalar və bloklar, min kvadratmetr	252,8	115,4	129,1
Asfalt, ton	7 654,1	15,7 dəfə	-
Emal edilmiş mərmər, ton	3 290,5	2,7 dəfə	-
Gips məmulatları, ton	190,2	76,8	1,3

Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində 2025-ci ilin yanvar-mart aylarında 2759,2 min manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə metallurgiya sənayesi sahəsində 22,6 faiz artım, hazır metal məmulatlarının istehsalı sahəsində isə 35,8 faiz azalma müşahidə olunmuşdur.

Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	
	Metallurgiya sənayesi	Hazır metal məmulatlarının istehsalı
2024-cü il		
Yanvar	-	2,2 dəfə
Yanvar-fevral	-	90,3
Yanvar-mart	-	67,6
Yanvar-aprel	-	78,3
Yanvar-may	-	75,9
Yanvar-iyun	-	69,4
Yanvar-iyul	-	78,8
Yanvar-avqust	-	87,1
Yanvar-sentyabr	183,5 dəfə	74,5
Yanvar-oktyabr	217,1 dəfə	76,2
Yanvar-noyabr	248,0 dəfə	75,2
Yanvar-dekabr	42,5	38,2

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	
	Metallurgiya sənayesi	Hazır metal məmulatlarının istehsalı
2025-ci il		
Yanvar	131,4	84,3
Yanvar-fevral	102,3	47,8
Yanvar-mart	122,6	64,2

Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	01.04.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Metallurgiya sənayesi məhsulları			
Metaldan konstruksiyalar, ton	2,5	20,2	-
Metal qapılar, pəncərələr, çərçivələr, ədəd	187	43,8	-
Dəmirdən və ya aşqarlanmamış poladdan digər profillər (yastı yaymadan alınmış məmulatlardan başqa), ton	26,0	110,6	11,7
Korroziyayadavamlı poladdan profillənmiş (qabırğavari çıxıntılar) təbəqələr (vərəqlər), ton	421,3	113,0	-
Hazır metal məmulatlarının istehsalı			
İstilik radiatorları, ton	237,3	62,9	-

Avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahəsində 2025-ci ilin yanvar-mart aylarında 263,2 min manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 77,8 faiz azalma müşahidə olunmuşdur.

Avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahəsində istehsalın dinamikası

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
	Avtomobil, qoşqu və yarımqoşquların istehsalı
2024-cü il	
Yanvar	-
Yanvar-fevral	25,5 dəfə
Yanvar-mart	128,6
Yanvar-aprel	132,8
Yanvar-may	151,8
Yanvar-iyun	172,0
Yanvar-iyul	2,2 dəfə
Yanvar-avqust	2,7 dəfə
Yanvar-sentyabr	2,9 dəfə
Yanvar-oktyabr	2,7 dəfə
Yanvar-noyabr	186,8
Yanvar-dekabr	186,8
2025-ci il	
Yanvar	30,8
Yanvar-fevral	23,5
Yanvar-mart	22,2

Avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahəsində məhsul istehsalı

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	01.04.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Avtomobillər, ədəd	12	22,2	57

Avtomobil istehsalı, ədəd



Mebellərin istehsalı sahəsində 2025-ci ilin yanvar-mart aylarında 2572,2 min manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 93,7 faiz azalma müşahidə olunmuşdur.

Mebellərin istehsalı sahəsində istehsalın dinamikası

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
	Mebellərin istehsalı
2024-cü il	
Yanvar	97,0
Yanvar-fevral	2,9 dəfə
Yanvar-mart	3,2 dəfə
Yanvar-aprel	2,8 dəfə
Yanvar-may	3,2 dəfə
Yanvar-iyun	3,1 dəfə
Yanvar-iyul	2,3 dəfə
Yanvar-avqust	2,7 dəfə
Yanvar-sentyabr	2,4 dəfə
Yanvar-oktyabr	3,4 dəfə
Yanvar-noyabr	3,1 dəfə

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
	Mebellərin istehsalı
Yanvar-dekabr	3,1 dəfə
2025-ci il	
Yanvar	23,4
Yanvar-fevral	7,7
Yanvar-mart	6,3

Mebellərin istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	01.04.2025-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Mebel, ədəd **	520	19,7	-
Döşək, ədəd	475	46,2	175

*) ev təsərrüfatlarında sənaye məhsulu istehsalının, habelə hüquqi şəxs statusu almadan fərdi sahibkar kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işinin qiymətləndirilməsi də nəzərə alınmaqla

**) ev təsərrüfatlarında məhsul istehsalı natura ifadəsində nəzərə alınmayıb

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorları

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2025-ci ilin yanvar-mart aylarında 26241,1 min manat dəyərində məhsul istehsal olunmuş və xidmətlər göstərilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 19,1 faizlik artım müşahidə olunmuşdur.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 2494,2 min manat təşkil etmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,7 dəfə artım müşahidə olunmuşdur.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında məhsul buraxılışı

Fəaliyyət növlərinin adı	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir, min manat	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	26 241,1	119,1
Su təchizatı, tullantıların təmizlənməsi və emalı	2 494,2	4,7 dəfə

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmiş əsas məhsullar

Məhsul növlərinin adı və ölçü vahidi	2025-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı		
Elektrik enerjisi, mVt.s	91 213,5	98,9
ondan əmtəəlik	90 069,8	99,0
istilik elektrik stansiyalarının istehsalı	54 812,0	86,1
su elektrik stansiyalarının istehsalı	21 513,2	141,3
günəş enerjisi ilə işləyən elektrik stansiyalarının istehsalı	13 744,6	113,6
Su təchizatı, tullantıların təmizlənməsi və emalı		
Suyun təmizlənməsi və bölüşdürülməsi, min kubmetr	7 693,5	5,7 dəfə

Elektrik enerjisi istehsalının dinamikası



Tikinti

2025-ci ilin yanvar-mart aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 43060,9 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 42,3 faiz çoxdur.

Əsas kapitala vəsait qoyuluşunun 12 milyon 650 min 600 manatı və ya 29,4 faizi dövlət sektorunun, 30 milyon 410 min 300 manatı və ya 70,6 faizi isə qeyri-dövlət sektorunun payına düşür.

İstifadə olunmuş vəsaitin 2 milyon 742 min 200 manatı və ya 6,4 faizi məhsul istehsalı sahələrinə, 14 milyon 3 min 400 manatı və ya 32,5 faizi xidmət sahələrinə, 26 milyon 315 min 300 manatı və ya 61,1 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Əsas kapitala vəsait qoyuluşunun strukturu, faizlə

Əsas kapitala yönəldilmiş vəsaitlərin 29 milyon 843 min 400 manatı və ya 69,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 17,2 faiz çoxdur.

Əsas kapitala yönəldilmiş vəsaitlərdə müəssisə və təşkilatların öz vəsaitləri 3334,4 min manat, büdcə vəsaitləri 12223,9 min manat, digər maliyyə mənbələri isə 27502,6 min manat təşkil etmişdir.

Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər

İqtisadiyyatın sahələri	2025-ci ilin yanvar-mart aylarında, min manat	Əvvəlki ilə nisbətən, faizlə	Ümumi yekunda xüsusi çəkisi, faizlə
Cəmi	**43 060,9**	**142,3**	**100,0**
Müəssisə və təşkilatların öz vəsaitləri	3 334,4	141,8	7,7
Büdcə vəsaitləri	12 223,9	2,5 dəfə	28,4
Digər maliyyə mənbələri	27 502,6	119,9	63,9

2025-ci ilin yanvar-mart aylarında əsas kapitala yönəldilmiş ümumi investisiyanın 66,7 faizi tikinti, 17,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 3,3 faizi informasiya və rabitə, 2,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 0,8 faizi təhsil, 0,8 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 0,7 faizi sənaye, 0,6 faizi yaşayışın təşkili və ictimai iaşə, 0,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,1 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 0,4 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrinə sərf edilmişdir.

İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri

İqtisadiyyatın sahələri	2025-ci ilin yanvar-mart aylarında, min manat	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	Ümumi yekunda xüsusi çəkisi, faizlə
Cəmi	**43 060,9**	**142,3**	**100,0**
Sənaye	308,9	41,5	0,7
o cümlədən:			
emal sənayesi	2,0	0,5	0,1
elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	6,9	2,4	0,1
Su təchizatı; tullantıların təmizlənməsi və emalı	300,0	4,2 dəfə	0,5
Tikinti	28 748,9	120,5	66,7
Ticarət; nəqliyyat vasitələrinin təmiri	930,0	76,3	2,2
Nəqliyyat və anbar təsərrüfatı	18,5	185,0	0,1
Yaşayışın təşkili və ictimai iaşə	259,0	79,6	0,6
İnformasiya və rabitə	1 415,6	192,4	3,3
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	343,5	132,1 dəfə	0,8

İqtisadiyyatın sahələri	2025-ci ilin yanvar-mart aylarında, min manat	2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə	Ümumi yekunda xüsusi çəkisi, faizlə
Dövlət idarəetməsi və müdafiə; sosial təminat	3 002,2	3,7 dəfə	6,9
Təhsil	374,1	-	0,8
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	7 471,8	116,9 dəfə	17,4
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	10,0	1,8	0,1
Digər sahələrdə xidmətlərin göstərilməsi	178,4	80,3	0,4

Əsas kapitala yönəldilmiş vəsaitin dinamikası

Dövr	Əsas kapitala yönəldilmiş vəsaitlər, min manat	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
2024-cü il		
Yanvar	2 058,4	154,7
Yanvar-fevral	4 451,1	54,7
Yanvar-mart	30 263,2	68,2
Yanvar-aprel	36 495,4	72,7
Yanvar-may	42 343,5	69,7
Yanvar-iyun	75 536,0	81,6
Yanvar-iyul	81 143,9	80,0
Yanvar-avqust	86 090,8	82,6
Yanvar-sentyabr	128 548,8	102,8
Yanvar-oktyabr	134 411,3	104,6
Yanvar-noyabr	140 358,3	107,0
Yanvar-dekabr	270 573,8	162,3
2025-ci il		
Yanvar	1 489,7	72,4
Yanvar-fevral	3 800,2	85,4
Yanvar-mart	43 060,9	142,3

Əsas kapitala yönəldilmiş vəsaitlərdən tikinti-quraşdırma işlərinin dinamikası

Dövr	Tikinti-quraşdırma işlərinin dəyəri, min manat	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
2024-cü il		
Yanvar	763,4	96,3
Yanvar-fevral	2 515,6	2,2 dəfə
Yanvar-mart	25 467,3	75,3
Yanvar-aprel	29 427,5	81,2
Yanvar-may	32 658,9	75,6
Yanvar-iyun	62 041,1	88,0
Yanvar-iyul	65 238,7	82,5
Yanvar-avqust	68 578,8	84,0
Yanvar-sentyabr	108 230,0	107,4
Yanvar-oktyabr	112 025,9	107,7
Yanvar-noyabr	116 027,0	109,0
Yanvar-dekabr	230 573,4	168,1
2025-ci il		
Yanvar	574,1	75,2
Yanvar-fevral	1 244,0	49,5
Yanvar-mart	29 843,4	117,2

Hərbi quruculuq. 2025-ci ilin yanvar-mart aylarında "Naxçıvan" Ələhiddə Sərhəd Diviziyasının şəhərciyində hamam-camaşırxananın tikintisi davam etdirilmişdir.

İnzibati binalar. Naxçıvan şəhərində "DOST" Mərkəzinin tikintisi davam etdirilmişdir.

Mənzil-kommunal təsərrüfatı. Naxçıvan şəhərində iki yaşayış binasının tikintisi davam etdirilmişdir.

Şərur rayonunda 2 yaşayış binasının əsaslı təmiri başa çatdırılmış, yaşayış kompleksinin və yaşayış binasının tikintisi, 12 yaşayış binasının əsaslı təmiri davam etdirilmişdir.

Şərur rayonunun Sərxanlı, Culfa rayonunun Ərəfsə, Kəngərli rayonunun Qarabağlar və Böyükdüz kəndlərinin hər

birində bir mərasim evinin tikintisi başa çatdırılmış, Şərur rayonunun Kərimbəyli və Dərəkənd, Babək rayonunun Yarımca, Ordubad rayonunun Unus, Vələver, Dırnıs və Başkənd, Culfa rayonunun Yaycı, Kəngərli rayonunun Yeni Kərki, Şahbuz rayonunun Daylaqlı və Kiçikoba, Sədərək rayonunun Dəmirçi kəndlərinin hər birində bir mərasim evinin tikintisi davam etdirilmişdir.

Su təchizatı. Culfa rayonunun Əbrəqunus kəndində subartezian quyusunun və suaparıcı boru xəttinin tikintisi başa çatdırılmışdır.

Babək rayonunun Qaraqala və Vayxır, Ordubad rayonunun Düylün, Şahbuz rayonunun Daylaqlı kəndlərinin hər birində bir subartezian quyusunun tikintisi başa çatdırılmışdır.

Kəngərli və Şahbuz rayonlarında seləqarşı istiqamətləndirici bəndlərin tikintisi davam etdirilmişdir.

Şərur və Babək rayonlarında kollektor-drenaj şəbəkələrinin təmizlənməsi davam etdirilmişdir.

Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının ərazilərində kanal və arxların lildən təmizlənməsi davam etdirilmişdir.

Naxçıvan şəhərində istehsal və xidmət sahələri

Hesabat dövründə stomatoloji klinikanın;

- iaşə xidməti sahəsinin yaradılması başa çatdırılmışdır.

Bu dövr ərzində "Güvən Qida" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən mayonez və ketçup istehsalı sahəsinin;

- dörd xidmət sahəsinin;
- iki iaşə və xidmət sahəsinin;
- bir iaşə xidməti sahəsinin;
- "Avto Mexanika" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən avtomobil təmiri sahəsinin;
- "Təməl" Sənaye və Ticarət Şirkəti tərəfindən tikinti materialları istehsalı sahəsinin;
- bir heyvandarlıq təsərrüfatının yaradılması;
- tikinti materiallarının istehsalı sahəsinin və bir heyvandarlıq təsərrüfatının genişləndirilməsi;

- “MY NA CRAB” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən xərçəng yetişdirilməsi sahəsinin;
- “PLATINUM” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən metal məmulatlarının istehsalı sahəsinin;
- dəmir məhsulları istehsalı sahəsinin inkişaf etdirilməsi davam etdirilmişdir.

Şərur rayonunda istehsal və xidmət sahələri

Hesabat dövründə Şərur şəhərində ticarət sahəsinin;
- Xanlıqlar kəndində ticarət sahəsinin;
- Dərəkənd kəndində bərbərxananın;
- Dizə kəndində avtotəmir sexinin;
- Ələkli kəndində mağazanın;
- Şərur şəhərində avtomobil təmiri sahəsinin;
- Qorçulu kəndində şirniyyat sexinin, iaşə və xidmət sahəsinin;
- Şərur şəhərində, Qorçulu, Yengicə, Xanlıqlar və Qarxun kəndlərinin hər birində bir iaşə xidməti sahəsinin yaradılması;
- Arbatan və Aşağı Yaycı kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının genişləndirilməsi;
- Oğlanqala kəndində əkinçiliyin inkişafı başa çatdırılmışdır.

Bu dövr ərzində Şərur şəhərində ticarət sahəsinin;
- Şərur şəhərində avtomobil və avtomobil hissələrinin satışı sahəsinin;
- Şərur şəhərində və Yuxarı Daşarx kəndində hər birində bir iaşə və xidmət sahəsinin;
- Şərur şəhərində xidmət sahəsinin;
- Tumaslı kəndində çörək sexinin, avtotəmir, iaşə və xidmət sahəsinin;
- Zeyvə kəndində avtotəmir, iaşə və xidmət sahəsinin;
- Düdəngə kəndində avtotəmir və xidmət sahəsinin;
- Düdəngə kəndində avtoservis, iaşə və xidmət sahəsinin;
- Cəlilkənd kəndində avtomobil ehtiyat hissələrinin satışı, avtoservis və iaşə xidməti sahəsinin;
- Xanlıqlar kəndində avtoservis, iaşə və xidmət sahəsinin;

- Xanlıqlar kəndində çörək sexinin və unlu məmulatların istehsalı sahəsinin;
- Şərur şəhərində, Yengicə, Xələc və Püsyan kəndlərinin hər birində bir mağazanın;
- Kərimbəyli, Yuxarı Aralıq və Qarxun kəndlərinin hər birində bir iaşə xidməti sahəsinin;
- Vərməziyar kəndində iaşə və avtotəmir xidməti sahəsinin;
- Kürkənd, Çəmənli və Kürçülü kəndlərinin hər birində bir soyuducu anbarın;

Kürçülü kəndində heyvandarlıq təsərrüfatının yaradılması;
- Şərur şəhərində şadlıq sarayının əsaslı təmiri;
- Yengicə kəndində meyvə qurusu istehsalı sahəsinin;
- Şərur şəhərində un məmulatlarının istehsalı sahəsinin;
- Qarahəsənli, Oğlanqala, Xələc, Çəmənli, Dizə, Diyadin, Çərçiboğan və Stansiya Daşarx kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının genişləndirilməsi;
- Arpaçay kəndində istixana təsərrüfatının inkişafı davam etdirilmişdir.

Babək rayonunda istehsal və xidmət sahələri

Hesabat dövründə Nehrəm qəsəbəsində mağazanın;
- Cəhri qəsəbəsində iaşə xidməti sahəsinin;
- Yuxarı Uzunoba kəndində iaşə və xidmət sahəsinin yaradılması başa çatdırılmışdır.

Bu dövr ərzində Cəhri qəsəbəsində xidmət mərkəzinin;
- Cəhri qəsəbəsində avtotəmir sahəsinin;
- Nehrəm qəsəbəsində avtotəmir və xidmət sahəsinin;
- Nehrəm qəsəbəsində avtoservisin;
- Cəhri qəsəbəsində tikinti materiallarının satışı sahəsinin;
- Nehrəm qəsəbəsində, Qahab, Zeynəddin və Şəkərabad kəndlərinin hər birində bir iaşə xidməti sahəsinin;
- Sirab və Hacıvar kəndlərinin hər birində bir xidmət sahəsinin;
- Məmmədrza Dizə kəndində avtoservis və xidmət sahəsinin;

- Nehrəm qəsəbəsində üç, Zeynəddin kəndində iki, Babək şəhərində, Cəhri qəsəbəsində, Şəkərabad, Badaşqan və Məzrə kəndlərinin hər birində bir mağazanın;

- Qahab kəndində avtomobil təmiri, iaşə və xidmət sahəsinin;

- Badaşqan kəndində avtotəmir və ehtiyat hissələrinin satışı sahəsinin;

- Payız kəndində restoranın;

- Badaşqan və Hacıvar kəndlərinin hər birində bir anbarın;

- Nehrəm qəsəbəsində və Şıxmahmud kəndində hər birində bir iaşə və xidmət sahəsinin;

- Şıxmahmud kəndində un məmulatları istehsalı sahəsinin;

- Babək şəhərində çörək istehsalı sahəsinin;

- Zeynəddin kəndində istixana təsərrüfatının;

- Qahab kəndində heyvandarlıq təsərrüfatının yaradılması;

- Hacıvar kəndində yükdaşıma xidmətinin;

- Qahab və Aşağı Buzqov kəndlərinin hər birində iki, Kərimbəyli kəndində bir heyvandarlıq təsərrüfatının;

- Badaşqan və Aşağı Uzunoba kəndlərinin hər birində bir arıçılıq təsərrüfatının genişləndirilməsi;

- Şıxmahmud kəndində "Zəngəzur Logistik" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yükdaşıma xidmətinin;

- Sirab kəndində "Savalan-S" kiçik müəssisəsi tərəfindən limonat və qazsız suların istehsalı sahəsinin;

- Nehrəm qəsəbəsində və Hacıvar kəndində hər birində bir aqrar xidmət sahəsinin inkişaf etdirilməsi davam etdirilmişdir.

Ordubad rayonunda istehsal və xidmət sahələri

Hesabat dövründə Dəstə kəndində ticarət sahəsinin yaradılması başa çatdırılmışdır.

Bu dövr ərzində Ordubad şəhərində otelin;

- Dəstə kəndində üç, Vənənd kəndində bir avtomobil təmiri sahəsinin yaradılması;

- Biləv kəndində heyvandarlıq təsərrüfatının genişləndirilməsi;

- Ordubad şəhərində iaşə xidməti sahəsinin, Vənənd kəndində istirahət mərkəzinin təmiri davam etdirilmişdir.

Culfa rayonunda istehsal və xidmət sahələri

Hesabat dövründə Yaycı kəndində çörək istehsalı sahəsinin;

- Bənəniyar kəndində avtomobil təmiri sahəsinin;
- Yaycı kəndində avtoyuma məntəqəsinin və heyvandarlıq təsərrüfatının yaradılması başa çatdırılmışdır.

Bu dövr ərzində Bənəniyar kəndində gözəllik salonunun;

- Yaycı kəndində iaşə və xidmət sahəsinin;
- Yaycı kəndində mağazanın;
- Yaycı və Kırna kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının;
- Yaycı və Şurud kəndlərinin hər birində bir arıçılıq təsərrüfatının genişləndirilməsi;
- Ərəzin kəndində əkinçiliyin inkişafı davam etdirilmişdir.

Kəngərli rayonunda istehsal və xidmət sahələri

Hesabat dövründə Qıvraq qəsəbəsində xidmət sahəsinin yaradılması başa çatdırılmışdır.

Bu dövr ərzində Qıvraq qəsəbəsində ticarət və iaşə xidməti sahəsinin;

- Qıvraq qəsəbəsində iaşə xidməti sahəsinin;
- Şahtaxtı kəndində ticarət sahəsinin;
- Qıvraq qəsəbəsində ticarət-xidmət sahəsinin;
- Yurdçu kəndində xidmət sahəsinin yaradılması;
- Xok kəndində heyvandarlıq təsərrüfatının genişləndirilməsi;
- Çalxanqala kəndində şərabçılığın inkişaf etdirilməsi davam etdirilmişdir.

Şahbuz rayonunda istehsal və xidmət sahələri

Bu dövr ərzində Şahbuz şəhərində üç, Sələsüz kəndində bir iaşə və xidmət sahəsinin;

- Sələsüz kəndində xidmət sahəsinin;

- Yuxarı Qışlaq kəndində heyvandarlıq təsərrüfatının yaradılması;
- Külüs və Türkeş kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatının;
- Kolanı, Qızıl Qışlaq və Nursu kəndlərinin hər birində bir arıçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir.

Sədərək rayonunda istehsal və xidmət sahələri

Bu dövr ərzində Qaraağac kəndində yanacaqdoldurma məntəqəsinin;
- Dəmirçi kəndində avtoservis və iaşə xidməti sahəsinin;
- Sədərək kəndində iaşə xidməti sahəsinin yaradılması;
- Sədərək kəndində yükdaşıma xidmətinin genişləndirilməsi davam etdirilmişdir.

Nəqliyyat infrastrukturu. Naxçıvan şəhərinin Əliabad qəsəbəsində daxili avtomobil yollarının əsaslı təmiri davam etdirilmişdir.

Şərur rayonunda Təzəkənd, Babək rayonunda Nəhəcir-Göynük kənd avtomobil yollarının əsaslı təmiri davam etdirilmişdir.

Ordubad rayonunda Aza-Darkənd kənddaxili avtomobil yolunun, Kəngərli rayonunda Şahtaxtı Gömrük avtomobil yolunun və Xok kəndində daxili avtomobil yollarının əsaslı təmiri davam etdirilmişdir.

Şərur şəhərində avtovağzal binasının tikintisi davam etdirilmişdir.

Elektroenergetika və təbii qaz təminatı. Elektrik şəbəkələri üzrə 1 ədəd yeni transformator məntəqəsi quraşdırılmış, 3,35 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik xətləri çəkilmiş və ya dəyişdirilmişdir.

Bundan əlavə Culfa şəhərində 132/110/35/10 kilovoltluq Culfa yarımstansiyasının tikintisi davam etdirilmişdir.

1 aprel 2025-ci il tarixə muxtar respublikada 90 min 765 əhali abonenti təbii qazla təmin olunmuşdur.

Təhsil infrastrukturu. Babək rayonunun Hacıvar kəndində məktəb binasının tikintisi, Nehrəm qəsəbəsində 3 nömrəli məktəbin binasının yenidənqurması davam etdirilmişdir.

Mədəniyyət və turizm. Şərur rayonunun Mahmudkənd kəndində "Şəhid" bulağının tikintisi davam etdirilmişdir.

Şərur rayonunun Xanlıqlar və Babək rayonunun Kalbaoruc Dizə kəndlərinin hər birində bir məscidin tikintisi davam etdirilmişdir.

Ordubad rayonunun Vənənd kəndində Bələdiyyə parkının tikintisi davam etdirilmişdir.

Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksinin tikintisi davam etdirilmişdir.

Kənd təsərrüfatı

2025-ci ilin yanvar-mart ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 41301,7 min manat təşkil etmişdir ki, onun da 37925,6 min manatı heyvandarlıq, 3376,1 min manatı isə bitkiçilik məhsullarının payına düşür.

Kənd təsərrüfatının ümumi məhsulunun strukturu



Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 0,7 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 0,5 faiz, bitkiçilik məhsulları istehsalı isə 3,6 faiz artmışdır.

Kənd təsərrüfatı üzrə istehsal indeksinin dinamikası

Dövr	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə		
	Cəmi	o cümlədən	
		heyvandarlıq məhsulları	bitkiçilik məhsulları
2024-cü il			
Yanvar	100,4	101,0	43,1
Yanvar-fevral	96,8	97,2	41,1
Yanvar-mart	99,2	99,0	101,0
Yanvar-aprel	96,2	95,6	104,3
Yanvar-may	98,6	98,4	100,5
Yanvar-iyun	99,8	100,1	99,3
Yanvar-iyul	101,3	100,6	101,9
Yanvar-avqust	101,1	100,8	101,2
Yanvar-sentyabr	101,2	100,5	101,8
Yanvar-oktyabr	101,5	101,2	101,7
Yanvar-noyabr	101,1	101,1	101,2
Yanvar-dekabr	102,0	101,6	102,3
2025-ci il			
Yanvar	95,6	95,6	107,1
Yanvar-fevral	97,5	97,5	105,5
Yanvar-mart	100,7	100,5	103,6

Bitkiçilik. Muxtar respublikada yazlıq bitkilərin əkini davam edir. 1 aprel 2025-ci il tarixə 1281,7 hektar sahədə yazlıq bitkilər, o cümlədən 371,6 hektar sahədə dənli və dənli paxlalı bitkilər, 80,4 hektar sahədə dən üçün qarğıdalı, 341,9 hektar sahədə kartof, 90,1 hektar sahədə tərəvəz, 8,7 hektar sahədə ərzaq üçün bostan bitkiləri, 389 hektar sahədə yemlik bitkilər əkilmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə yazlıq əkinlərin sahəsi 29,7 faiz artmışdır.

Yazlıq əkin sahələrinin quruluşu



Yazlıq bitkilərin əkini

hektar

	Yanvar-mart		2025-ci ilin yanvar-mart ayları 2024-cü ilin yanvar-mart aylarına nisbətən, faizlə
	2025	2024	
Yaz əkininin əvvəlindən əkilmişdir	**1 281,7**	**988,0**	**129,7**
Dənli və dənli paxlalı bitkilər (qarğıdalısız)	371,6	335,5	110,8
o cümlədən			
buğda	21,6	6,3	3,4 d.
